

YADİGAR TƏVƏKKÜL

## ATA OLAN ANALARA

Ən ağır günümdə, çətin anımda,
Təkcə varlığına sığınıram mən.
Dünyanın hər yeri cənnət olsa da,
Sən yoxsan içində boğuluram mən.

Qolumun gücüsən, qəlbimin səsi,
Sənin eşqin ilə var olan mənəm.
Mənə sən vermisən həyat nəfəsi,
Ay mənim yeganə sevdiyim sənəm.

Ata yadigarım, sən ata sözlüm,
Mənim həyat eşqim məhəbbətimdir.
Ömrünə qurbanam, ay şirin sözlüm,
Tək sənin varlığın dəyanətimdir.

Bütün sevgilərin əzəli sənsən,
Cənnətdir, ayağın toxunan torpaq.
Bütün gözəllərin gözəli sənsən,
Anamın adıyla oxunan torpaq.

Könlünə qəm, kədər gəlməsin daha,
Gözünün yaşı da sevincdən gəlsin.
Tanrı, dərdlərinə yerin yoxdursa,
Anama toxunma, ver mənə gəlsin!

## BULUDLARIN ÜRƏYİ DOLUB

Yenə buludların ürəyi dolub,
Gözünün yaşını tökür üstümə.
Yapışıb həsrətin əlindən bərk-bərk,
Bütün açısıyla çökür üstümə.

Yenə xəyallarım pərən-pərəndi,
Yenə öz içimdə azıb qalmışam.
Ruhum perik düşüb geriyə dönmür,
Mən ruhsuz bədəndə yetim olmuşam.

Nəfəsim yolunu tapmır geriyə,
Boğur boğazımdan ayrılıq dəmi.
Solumda döyülür ömrün qapısı,
Süzülür gözümdən ayrılıq qəmi.

Haqqın qapısını aça bilsəydim,
Allahın əlindən bərk-bərk tutardım.
Çəkib aparardı özüylə məni,
Bu dərdi özümdən çəkib atardım.

## ADIN QOYMA BU EŞQİN

İçindəki tufanda calış batıb boğulma,
Qoyma alıb ruhunu əksin dərinliyinə.
Ürəyini qürurun əlində əsir etmə,
Qıyma məhəbbətini çəksin dərinliyinə.

Adın qoyma duyduğun hissini adsız böyut,
İçində boğ ömürlük gizli qəlbində yaşat.
Ürəyinin ağrısın çək biryolluq gözümə,
Adına yağış deyib qəmi buluda boşalt.

Vulkan kimi püskürüb yaxma dolduğun qəlbi,
Gecənin qaranlığın bağrına bas, ağla e...
Sükütun səsin dinlə, öz içində nalə çək,
Özün öz əllərinlə ürəyimi dağla e...

Nə deyirsən de artıq kəsir nəfəsi hicran,
Nolar ürəyim üstə həsrətin dadın qoyma.
Ya bitir bu istəyi, ya da son kəs görüşək,
Qəlbində gizli saxla bu eşqin adın qoyma.

## SƏN MƏNİM YADIMDAN NİYƏ ÇIXMIRSAN?

Sən mənim yadımdan niyə çıxmırsan?
Dövlətim deyilsən, varım deyilsən.
Niyə həsrətində alışıram mən,
Sevgilim deyilsən, yarım deyilsən.

Sən mənim yadımdan niyə çıxmırsan?
Ağlımda hakimlik edirsən, niyə?
Gündüzlər ömrümü əlimdən alır,
Gecələr ağladıb gedirsən, niyə?

Sən mənim yadımdan niyə çıxmırsan?
Gözümdə bir şirin yuxu olursan.
Bircə an xöşbəxtlik verib könlümə,
Gah da həsrət dolan qoxu olursan.

Sən mənim yadımdan niyə çıxmırsan,
Niyə əzabına dözürəm axı?
Mənim ki dərdimə dərman deyilsən,
Bəs niyə özümü üzürəm axı?

Sən mənim yadımdan niyə çıxmırsan?
Sən ki ürəyimi əzən adamsan.
Ömrümə gələndən sinəmin üstə,
Dönüb əzrayıla gəzən adamsan.

Sən mənim yadımdan niyə çıxasan,
Bütün həyatımı məhv edən sənsən.
Dəli məhəbbətin qumral telində,
Əbəbi ələnən bir bəyaz dənsən.

Sən mənim yadımdan niyə çıxmırsan?
Niyə də çıxasan, cansan, nəfəssən!
Ruhuma nə qədər əzab versən də
Sən yenə ömürlük sevdiyim kəssən!

## MƏN SƏNİ BU QƏDƏR NİYƏ SEVİRƏM

Mən səni bu qədər niyə sevirəm?
Sən ki, inanmırsan axı sözümə.
Nədən həsrətini belə çəkirəm,
Niyə zülm edirəm özüm özümə.

Mən səni bu qədər niyə sevirəm?
Sənin ki qəlbində məhəbbət yoxdur.
Bu sevgi həsrətin özüdür elə,
Bu eşqin sonunda səadət yoxdur.

Mən səni bu qədər niyə sevirəm?
Dəli bir sevgisən alov kimisən.
Sən mənim könlümü buza çevirən,
Zamansız ələnən qırov kimisən.

Bəs səni bu qədər niyə sevirəm?
Bir dəfə yadına düşən deyiləm.
Mən sənin eşqinə bulaşan gündən,
Dilənci biriyəm, qəlbən veyiləm.

Mən səni bu qədər niyə sevirəm?
Niyə qürurumu yerə vurmuşam?
Niyə ürəyimi əzirəm belə,
Mən niyə səninçün xəyal qurmuşam?

Mən səni bu qədər niyə sevirəm?
Bu necə sevgidir, nə məhəbbətdir?
Mən səni özümdən çox sevirəm ee...
Mənimçün bu sevgi bir səadətdir!

## SƏNİ NECƏ UNUDURAM, BİLİRSƏN?

Səni necə unuduram, bilirsən?
Xəyalını ürəyimdən sökürəm!
Həsrətini gözlərimin yaşına,
Baxışını ürəyimə bükürəm!

Səni necə unuduram, bilirsən?
Öz-özümdən uzaqlaşıb qaçıram.
Gündüzləri ilmə-ilmə didirəm,
Gecələri kipriyimdən asıram.

Səni necə unuduram, bilirsən?
Hər gün bir az məhv oluram, çökürəm.
Gülüşümlə gözlərimi aldadır,
Göz yaşımı ürəyimə tökürəm.

Səni necə unuduram, bilirsən?
Sanki həsrət qarşısında əsirəm.
Ətirini almaq üçün son dəfə,
Əsən yelin qarşısını kəsirəm.

Səni necə unuduram, bilirsən?
Sözlərimə dağ çəkirəm dilimdə.
Telefondan adını hey silirəm,
Həsrətinin ətri qalır əlimdə.

## AYRI QALMAYAQ DAHA

Ömrümüzün üstündə gəl nərd atıb oynayaq,
Bəlkə şeş qoşa düşdü, aramızda bölərik.
Dərdini qoy məzara, bu sevgidən zövq alaq ,
Kədərini, qəmini qəlbimizə gömərik.

Geyindir üşüməsin məhəbbəti qəlbinə,
Qoru həsrət oduna qəfildən yoluxmasın.
Kəsməsin nəfəsini ayrılığın xəncəri,
Ruhun ayrı düşdüyü eşq üçün darıxmasın .

Eşqinin alovundan bir ocaq çat qızınım,
Üşüyür baxışlarım indi yad baxışında.
Ürəyimin damını uçurmusan gedəndən,
İslanır, xəstə olur ayrılıq yağışında.

Nəfəsindən boynuma dolanan ətir olub
İsit ruhumun evin, özündə saxla məni.
Baxışında nazlanım sevginin özü olum,
Kipriyini çəpər et, gözündə saxla məni.

Qədərə boyun əyib təslim olmayaq daha,
Bu eşqin yollarında ayrı qalmayaq daha.

## DÜNYANIN YÜKÜ VAR

Dünyanın yükü var çiyinlərimdə,
Qəlbimin ağrısı ruhumu sıxır.
Sənin gözlərinin həsrət qorxusu,
Mənim xəyalımın evini yıxır.

Elə bir ağrım var kimsə çəkməyən,
Qələm də acizdi yazmağa belə.
Yuxu da qəsddədir belim bükməyə,
Qorxuram yuxumu yozmağa belə.

Bəlkə də bu ağrı hicran bəstəsi,
Sənmi düçar etdin bu dərdə məni?
Mənim ki ürəyim illər xəstəsi,
Bir sən düçar etmə kədərə məni.

Dinə də bilmirəm dilim söz tutmur,
Susuram gözümün yaşı danışır.
Sən mənim qəlbimin şahı olandan,
Ruhum fəryad edir, yuxum qarışır.

Ruhumun sən adlı bir qəzası var,
Kimin nə həddinə çəkə daşıya.
Qəlbimin sən adlı bir cəzası var,
Ömürlük ruhumda, mənlə yaşıyan.

## NƏ OLAYDI

Nə olardı mən də yaza biləydim,
Ürəyimdə fəryad edən ağrımı.
Ha sözlərdən bəzək vurub düzürəm,
Hey susuram, itirirəm ağlımı.

Boğuluram kar eləmir söz mənə,
Tabe olmur, ürək mənə, göz mənə,
Dərinlikdən bir səs deyir, döz mənə,
Hey susuram itirirəm ağlımı.

Qərib duşub dolanıram içimdə,
Ağrılarım olur özüm bicimdə.
Bu dərdimə məlhəm çəkim, içim nə?
Hey susuram itirirəm ağlımı.

Dilimdəki sözlər deşir qəlbimi,
Cevrilib ağrıya eşir qəlbimi.
Eyləyib dilənçi, yesir qəlbimi,
Hey susuram itirirəm ağlımı.

## SİL DEDİN

Telfondan adımı sil dedin mənə,
Qəlbimdən silməyin yolun demədin.
Sənincün məhəbbət əyilməz qaya,
Onuncün ayrılıq qəmin yemədin.

Bir fikri unutdun deyəsən axı,
Unutdun sevginin qüruru olmur.
Məhəbbət və qürür, güldürmə məni,
Eşqə düşən kəsin heç ağlı qalmır.

O qədər dərd çəkib, kədər yaşadım,
İçimdə sən adlı həsrət doğuldu.
Sən məni tərk edib getdiyin gündən,
Könlümdə əbədi ümid boğuldu.

Sildim sənə aid xatirələri,
Adında duyğumu daşıyır dedim.
Məhəbbət Leylaynan öldü dedilər.
Baxın, gözlərimdə yaşıyır dedim.

